# Prezident İlham ƏLİYEV: Azərbaycan idmançıları bizi hər il sevindirir



***❐ Azərbaycan idmanında çoxdan yaranmış xoş bir ənənə 2018-ci il dekabrın 13-də öz tarixinə növbəti səhifə yazdı. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin iştirakı ilə MOK-da keçirilən 2018-ci ilin idman yekunlarına həsr olunmuş mərasim idman ictimaiyyəti nümayəndələrinin ruh yüksəkliyi şəraitində davam etdi.***





Bütün son illərdə olduğu kimi, artıq finişin astanasında olan 2018-ci ildə də Azərbaycan idmançıları beynəlxalq meydanda məsul yarışlarda – dünya və Avropa çempionatlarında, digər mötəbər beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil etmiş, güclü rəqiblərlə gərgin mübarizədə qazandıqları qələbə və medallarla Azərbaycanın dünyada sayılıb-seçilən qüdrətli idman dövləti olduğunu bir daha inamla sübuta yetirmişlər.

Dövlətimizin başçısı mərasimdəki çıxışında bu barədə razılıq hissi ilə bildirmişdir: – Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq...

Azərbaycan həyatın bütün sahələrində olduğu kimi, idmanda da yüksək sürətlə inkişaf edir və ildən-ilə daha uca zirvələrə yüksəlir. Qazanılan hər bir nailiyyət isə dövlətin idmançıların məşqləri üçün yaratdığı gözəl şərait, onlara göstərilən daimi qayğı və əlbəttə ki, bir də atletlərimizin və onların məşqçilərinin, bütün idman mütəxəssislərimizin gərgin və səmərəli məşqləri sayəsində mümkün olur.

Təsadüfi deyil ki, bütün beynəlxalq idman təşkilatları Azərbaycan idmanının sürətli inkişafını, imkanlarını və uğurlarını yüksək qiymətləndirir, atletlərimizin beynəlxalq yarışlarda, xüsusən də bizim üçün rekord göstərici –18 medalla əlamətdar olmuş Rio-de-Janeyro Olimpiadası-2016-da qazandıqları nailiyyəti xüsusi qeyd edir. Ölkəmiz həmin göstərici ilə haqlı olaraq qürur duyur.

Beynəlxalq idman federasiyalarının Azərbaycana göstərdikləri yüksək etimadın nəticəsidir ki, hər il ölkəmiz neçə-neçə mötəbər yarışın təşkilatçısı olur. Hər dəfə də turnirləri ən yüksək səviyyədə təşkil etməklə ümidləri tam doğruldur. Bu il Bakıda keçirilmiş yarışları xatırlamaq istəsək, payızda Milli Gimnastika Arenasında təşkil edilən və 120-dən artıq ölkənin tatami ustalarını paytaxtımıza toplayan cüdo üzrə dünya çempionatını xüsusi qeyd edə bilərik. Həmin çempionat bütün planetin əsl cüdo bayramına çevrildi.

Mükəmməl şəkildə təşkil edilən "Formula-1" Azərbaycan Qran-prisi də idmanımızın tarixində özünə layiqli yer etmişdir. Sürət ustaları şəhərimizdə onların startlarının yüksək səviyyədə təşkil olunduğunu minnətdarlıq hissi ilə bildirir və Azərbaycanda keçirilən yarışlara böyük məmnuniyyətlə gəldiklərini qeyd edirlər.

Ölkəmizdə mövcud olan 44 Olimpiya İdman Mərkəzi dövlətimizin və şəxsən Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri, cənab İlham Əliyevin idman qurğularının tikintisinə necə böyük əhəmiyyət verdiyinin göstəricisidir. Lakin bu da hələ son hədd deyil. Dövlət başçımız MOK-da keçirilən mərasimdəki çıxışında bu barədə belə demişdir:

"Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır".

Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yürüşləri, ayrı-ayrı növlər üzrə dünya və Avropa çempionatları Azərbaycan idmanı tarixində silinməz iz buraxıb. Qarşıda isə olimpiyaqabağı 2019-cu ildə şəhərimizdə təşkil olunacaq yeni-yeni yarışlar, xüsusən də mayda əzəmətli Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA Avropa Liqası turnirinin final görüşü, eləcə də Avropa Gənclər Olimpiya Festivalı və digər yarışlar durur. İdman həvəskarlarımız həmişəki kimi, yenə də bu startlarda maraqlı mübarizənin şahidi olacaqlar.

Azərbaycanda idmana daimi dövlət qayğısının daha bir parlaq təzühürü iki gün əvvəl keçirilmiş mərasimdə görkəmli idman mütəxəssislərinə və məşhur çempionlara verilən mükafatlar idi. Prezident İlham Əliyevin sərəncamları ilə bir qrup idmançı və mütəxəssis fəxri adlara və Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. Deməli, ölkəmizdə idmançılara xüsusi qayğı və hörmət var.

Bununla əlaqədar Prezident İlham Əliyev demişdir: "Biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin.

Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir."








**Oqtay BAYRAMOV,**
**"Xalq qəzeti"**